**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin İdarəetmə sistemlərinin sertifikatlaşdırılması orqanı**

# “Sifarişlərin təhlili” PROSEDURU

## 1. Ümumi müddəalar

Bu prosedur Sertifikatlaşdırma orqanına (SO), sifarişçi təşkilatlardan İdarəetmə sisteminin sertifikatlaşdırılması barədə daxil olan sifarişlərin qeydiyyatı, təhlili və qəbul olunması qaydalarını müəyyən edir.

Sertifikatlaşdırma orqanına daxil olan sifarişlər qeydiyyata alınmalıdır.

## 2. Normativ istinadlar

2.1. İSO/İEC 17021:2015 “Uyğunluğun qiymətləndirilməsi. İdarəetmə sistemlərinin auditini və sertifikatlaşdırılmasını keçirən orqanlara olan tələblər” standartı.
2.2. İSO 9001:2015 “Keyfiyyəti idarəetmə sistemləri. Tələblər” standartı.
2.3. ASİ/KRS/001-Keyfiyyət üzrə Rəhbərlik sənədi.

## 3. Məsuliyyət

**3.1** Sertifikatlaşdırma orqanının sifarişlərin idarəedilməsi qrupu aşağıdakılara görə məsuliyyət daşıyır:

- Sifarişçi təşkilatlardan, idarəetmə sistemi haqqında zəruri məlumatların alınmasına;
- Sifarişçi təşkilatlar tərəfindən daxil olan sifarişlərin təhlilinin keçirilməsinə.

**3.3** Sertifikatlaşdırma Orqanının (SO) rəhbəri aşağıdakılara görə məsuliyyət daşıyır.

- Sifariş üzrə qərarın qəbul edilməsinə.

## 4. Sifarişlərin təhlili üçün məlumatların toplanması

İdarəetmə sistemlərinin sertifikatlaşdırılması üçün sifarişlər Sifarişçilər tərəfindən ASİ/F/026 ”İdarəetmə sisteminin sertifikatlaşdırılması üçün sifariş” forması üzrə təqdim edilməlidir.

Sertifikatlaşdırma orqanına daxil olan sifarişlər “Sifarişlərin idarə edilməsi qrupu” tərəfindən ASİ/F/022 ”Sifarişlərin qeydiyyat” forması üzrə qeydiyyata alınmalıdır.

“Sifarişlərin idarə edilməsi qrupu” sifarişçi təşkilatın səlahiyyətli nümayəndəsindən aşağıdakıları təyin etmək üçün, zəruri məlumatların təqdim edilməsini tələb etməlidir:

a) Sertifikatlaşdırmanın tətbiq sahəsini, sifarişçi təşkilatın əsas xarakteristikalarını, onun adını, ünvanını, faktiki yerini, proses və əməliyyatlarının mühüm aspektləri və bütün müvafiq hüquqi öhdəlikləri.

b) Sertifikatlaşdırma sahəsinə aid ümumi informasiyanı, məsələn onun fəaliyyətini, insan və texniki resurslarını, daha böyük təşkilat ilə olan qarşılıqlı əlaqə və funksiya, əgər belə əlaqə mövcuddursa.

c) Tələblərin uyğunluğuna təsir göstərən və cəlb olunan təşkilatlar tərəfindən keçirilən bütün proseslərə aid olan məlumatlar.

d) Sifariş edilən sertifikatlaşdırmanın aid olduğu standartı və yaxud digər tələbləri.

e) İdarəetmə sistemi ilə əlaqədar məsləhət xidmətindən istifadə olunmasına dair məlumatı.

f) Tətbiq olunan idarəetmə sisteminin başqa orqanlar tərəfindən sertifikatlaşdırılması.

g) **İnteqrəedilmiş idarəetmə sistemləri üçün inteqrasiya səviyyəsi, sənədlərin inteqrasiya səviyyəsi, idarəetmə sistemlərinin elementləri və məsuliyyətlər.**

## 5. Sifarişlərin təhlili

Sertifikatlaşdırma orqanı sifarişin yerinə yetirilməsinin mümkünlüyünü müəyyən etmək üçün onun təhlilini keçirməlidir.

Təhlil zamanı aşağıda göstərilən məsələlərə diqqət yetirilməlidir:

- Sifarişi verən təşkilatın tətbiq olunan İdarəetmə sistemi haqqında məlumatlarının auditin keçirilməsi üçün kifayətliliyi;
- Sertifikatlaşdırma orqanı tərəfindən sertifikatlaşdırmanın aparılması üçün məcburi tələblərin (standartların, qanunvericiliyin və digər normativ sənədlərin) müəyyən edilməsi;
- Sertifikatlaşdırma orqanı ilə sifarişçi arasında sifariş üzrə yanlış anlaşılan məlumatlara aydınlıq gətirilməsi;

- Sertifikatlaşdırma orqanının sifariş üzrə sertifikatlaşdırma fəaliyyətini həyata keçirmək üçün imkan və səriştəliliyə malik olması;
- Sertifikatlaşdırma orqanı tərəfindən keçirilən sifarişlərin təhlilinində EA koduna malik olan auditor və ya texniki ekspertlərin iştirakının təmin olunması;
- Sifariş üzrə sertifikatlaşdırılmalı sahə, yerləşmə yeri, sifarişçi təşkilatın fəaliyyət növləri, tam auditin aparılması üçün lazım olan vaxt, sertifikatlaşdırma orqanının fəaliyyətinə təsir göstərən istənilən digər şərtlər diqqətə alınır (dil, təhlükəsizlik şərtləri, qərəzsizliyin təmin olunması və s.).

Aparılan təhlilin nəticələrinə əsaslanaraq Sertifikatlaşdırma orqanı ASİ/F/042 forması üzrə təhlilin protokolunu tərtib edir. Protokol, sertifikatlaşdırma haqqında qərar çıxardılması üçün rəhbərliyə təqdim edilir. Qərar ASİ/F/027 forması üzrə sənədləşdirilir. Sifariş üzrə qəbul edilən qərar haqqında sifarişçiyə rəsmi məlumat verilməlidir.

Sifariş edilmiş İdarəetmə sisteminin sertifikatlaşdırılması haqqında müsbət qərar qəbul edildikdə Sertifikatlaşdırma orqanı, ASİ/P/008 proseduru əsasında, səlahiyyətli auditor qrupunu təyin edir.

İdarəetmə sisteminin sertifikatlaşdırılmasına aid tələblər dəyişdirildiyi halda, Sertifikalaşdırma orqanı müvafiq sənədlərdə də dəyişikliklərin edilməsini və dəyişdirilmiş tələblər haqqında işçi heyətinin məlumatlandırılmasını təmin etməlidir.

Sifarişlərin təhlili ilə bağlı bütün qeydlər işçi vəziyyətdə saxlanılmalıdır.

## 6. Sənədlərin saxlanılması

Sifarişlərin təhlili ilə bağlı bütün qeydlər Sertifikalaşdırma orqanının “Sifarişlərin idarə edilməsi qrupu”nda 6(altı) il müddətinə saxlanmalıdır.